# Heydər Əliyev və milli-mənəvi dəyərlər

**Sevinc Ağayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: sevinj.aliyeva.76@bk.ru

**Annotasiya.** Müstəqil Azərbaycanımız öz milli-mənəvi dəyərlərini daima qoruyan, ona hörmətlə yanaşan ölkədir. Ümummilli liderimiz Heydər Əliyev milli-mənəvi dəyərlərin inkişafı, qorunması və təbliği istiqamətində əlindən gələni etməklə dövlət və dövlətçiliyi formalaşdırmışdır. Azərbaycan xalqını sevən Ümummili liderimiz Heydər Əliyev milli-mənəvi dəyərləri olmayan millətin həqiqi millət, həqiqi xalq olmadığını, bu dəyərlərin Azərbaycan xalqının həyatında, yaşayışında, fəaliyyətində formalaşdığını hər zaman vurğulayırdı. Abidələrimizin bərpası, onların yenidən inşası və bunun kimi digər işlər Heydər Əliyevin diqqət və qayğısının uğurlu nəticəsi idi.
**Açar sözlər:** Ümummili lider, Heydər Əliyev, milli, dəyər, xalq

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2023; qəbul edilib – 25.09.2023

# Heydar Aliyev and national moral values

**Sevinj Aghayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi
E-mail: sevinj.aliyeva.76@bk.ru

**Abstract.** Our independent Azerbaijan is a country that always protects and respects its national and moral values. Our national leader Heydar Aliyev formed the state and statehood by doing his best in the direction of development, protection and preaching of national and moral values. Our national leader Heydar Aliyev, who loves the people of Azerbaijan, always emphasized that a nation without national and moral values is not a real nation, a real people, and that these values are formed in the life, living, and activities of the Azerbaijani people. Restoration of our monuments, their reconstruction and other works like this were the successful results of Heydar Aliyev's attention and care.
**Keywords:** National leader, Heydar Aliyev, national, value, people

**Article history:** received – 13.09.2023; accepted – 25.09.2023

## Giriş / *Introduction*

*"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur,*
*çünki onların hər biri ümumdünya mədəniyyətinə və*
*sivilizasiyasına öz töhfəsini verir".*
**Ümummilli lider Heydər Əliyev**

Vətənimizin hər qarışı öz iqlimi, təbii sərvətləri və mədəniyyəti ilə zəngindir. Bu özünəməxsusluq tarix boyu xalqların birgəyaşayış ənənəsinə öz müsbət təsirini göstərmişdir. Multikulturalizm eyni ölkədə yaşayan müxtəlif xalqların mədəniyyət hüquqlarına hörmətlə yanaşan, irqi və dini fərq-

lər qoymadan bütün vətəndaşların hüquqi birliyidir. Multikultural cəmiyyətin mühüm komponenti hesab olunan etnomədəni müxtəlifliyin qorunub saxlanılması, bütün xalqların bərabər hüquqlu əsaslarla eyni bir dövlətin sərhədləri çərçivəsində mövcud ola bilməsi baxımından "bərabərlik hüququ"nun həyati əhəmiyyəti çox böyükdür. Bu məsələlərə xüsusi diqqət yetirən Ulu öndər Heydər Əliyev də öz çıxışlarında davamlı olaraq vurğulayırdı ki: "Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, bərabər hüquqa malikdirlər" [4, s.16] .

Müstəqil Azərbaycanımızda sabitliyin və sürətli inkişafın təməli Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti ilə bağlıdır. Bütün dünyada tanınan özünəməxsus dünyagörüşə, dərin siyasi biliyə malik olan Ulu liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə dövlətimizin dünya səviyyəsində tanıdılması üçün əlindən nə gəlirsə, onu da etdi. Bütün sahələrdə inkişafın təməlini qoymaqla müstəqil dövlətimizin adının dünya ölkələri sırasında yazılmasına nail oldu. Hakimiyyətdə olduğu dövrlərdə əldə etdiyi çoxşaxəli uğurları ilə tarixin yaddaşında iz qoydu və adını böyük hərflərlə yazdı.

## Əsas hissə / *Main part*

Böyük lider Heydər Əliyev hər zaman çıxışlarında müstəqil dövlətimizdə yaşayan xalqların hüquq və bərabərliyi barədə fikir söyləyəndə böyük sevgi və hörmətlə deyirdi: "Azərbaycanın varı, dövləti təkcə onun pambığı, yeraltı, yerüstü sərvətləri deyil, onun ərazisində yaşayan xalqlarıdır. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır". Birmənalı şəkildə qeyd etməliyik ki, Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində məhz bu barədə belə demişdir: "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir. ...bəzi ölkələrdə multikulturalizm iflasa uğrayıb, özünü doğrultmayıb. Azərbaycanda isə multikulturalizm yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir dəyərdir" [2].

Tarixin sınağından çıxmış hər kəlməsi bir öyüd, bir nəsihət olan Ümummili lider Heydər Əliyev 14 avqust 2001-ci ildə bəyanatında qeyd etdiyi kimi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir". Etnik tərkibi müxtəlif olan Azərbaycan Respublikasında milli azlıq məsələsinə Heydər Əliyev kimi həssas, diqqətli, müdrikcəsinə yanaşan, birgəyaşayışın milli-tarixi ənənəsinin ölkənin gələcəyində rolu baxımından bütün variantların ən optimalı, faydalısı kimi seçərək nəzarətdə saxlamış ikinci bir siyasətçi olmamışdır. Ötən əsrin 60-80-ci illərində konsepsiya şəklində keçirilən ilk milli siyasət kursunun əməli faydası, inandırıcı gücü ölkədə mövcud olan milli birliyi daha da gücləndirdi [1, s.270]. Müstəqil dövlətçiliyimiz üçün əlindən gələni edən dahi şəxsiyyət hər zaman multikulturalizm siyasətini dövlətimizin hərtərəfli inkişafının tərkib hissəsi olaraq vurğulamaqla: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq" deyərək Ulu öndər bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi [3, s.34].

Xalqını sevən dahi şəxsiyyət Heydər Əliyev hər çıxışında, görüşlərində Azərbaycanda yaşayan milli və dini azlıqların öz bayram və mərasimlərini azad və sərbəst şəkildə, böyük təntənə ilə qeyd etdiklərini və bunun Azərbaycanda tarixən formalaşmış tolerantlığın, xoşməramlı milli-dini

münasibətlərin, mehriban dostluq və qardaşlıq mühitinin göstəricisi olduğunu, həmçinin də Müstəqil Azərbaycan Respublikasında yaşayan milli azlıqlara öz tarixi köklərini, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün beynəlxalq normalara uyğun demokratik hüquqi-siyasi şəraitin bərqərar edildiyini, bu gün hər bir Azərbaycan vətəndaşının milli mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq, milli dövlətçiliyimizin və demokratiyanın bu əvəzsiz bəhrələrindən yararlandıqlarını böyük məhəbbətlə diqqətə çatdırırdı. Heydər Əliyev: "Xalqı həmişə mənəviyyat birləşdirmişdir, çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür", "İnsan mənəviyyatı üçün yaşamalıdır", "Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır"– deməklə insanlığın formalaşmasında mənəviyyatın hər şeydən üstün olduğunu ifadə etmişdir.

Azərbaycan dilinin, onun əlifbasının qorunub saxlanması və inkişaf etdirilməsi dövlətçiliyimizin atributlarına hörmət və qayğının bir nümunəsidir. Milli dəyərlərimizə, tarixi keçmişimizə, adət-ənənəmizə, folklorumuza, ədəbiyyatımıza, dilimizə xüsusi hörmət və qayğı ilə yanaşan Ümummilli lider Heydər Əliyev xalqımızın qəlbində əbədi, silinməz məhəbbət qazanıb. Konstitusiyamızın 21-ci maddəsində "Dövlət dili" haqqında qanunda Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olduğu, Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin etdiyi və Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin etdiyi qeyd edilir. Bu qanun ölkəmizdə yaşayan xalqların, millətlərin dilinə olan qaryı və diqqətin cəmiyyətin tolerantlığını şərtləndirən amillərdən olduğunu bir daha sübut edir. Müstəqil Azərbaycanımızın Prezidenti İlham Əliyev də Azərbaycan dilini xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının birliyinin möhkəm təməli olduğunu, bu dilin qorunmasının, sonrakı nəsillərə ötürülməsinin hər bir azərbaycanlının müqəddəs borcu olduğunu hesab edir.

Dövlətimizdə multikultural və tolerant dəyərlərə münasibəti biz Ümumilli liderimizin davamçısı, Müstəqil Respublikamızın Prezidenti cənab İlham Əliyevin siyasi kursunda da görürük. Belə ki, Prezidentimizin 11 yanvar 2016-cı ildə imzaladığı sərəncamında Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycanda multikulturalizm ənənlərinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ili Azərbaycan Respublikasında "Multikulturalizm" ili elan etdiyini, tarixi İpək yolunda yerləşən Azərbaycanımızı müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmasının da vurğulandığının şahidiyik. Həqiqətən də rahat, sakit yaşamaq üçün dövlətimizin müstəqilliyi, toxunulmazlığı, bütövlüyü bütün xalqın əsas məqsədlərindən olmalıdır. 27 sentyabr 2020-ci ildə xalq, dövlət və ordu birliyi özünü bir daha sübut etdi və birlikdə "44 günlük tarix" yazıldı. Bu tarixi uğur Ali Baş Komandanımız cənab İlham Əliyevin uzaqgörənliyi və dəqiqliyi sayəsində əldə edildi. Xalqımız dünyanı cənginə alan pandemiya ilə mübarizəyə baxmadan hər addımda ordudan gələn uğurlu xəbərləri səbirsizliklə gözləyirdi. Böyük mübarizədə şəhidlərimizin (Allah rəhmət eləsin!) tökülən qanı yedə qalmadı, mənfur ermənilərin 30 illik qəsbləri darmadağın edildi, "Dəmir yumruq" Vətəni öz yarısına qovuşdurdu.

Vətən müharibəsi şanlı tariximizə qızıl hərflərlə qeyd edildi. "44 gün" və ondan sonrakı "23 saat" müddətində Müstəqil Azərbaycanımızın hər yerindən vətən oğulları düşmənlə mübarizədə həmrəy oldu və birlikdə müharibədə son damla qanlarına qədər vuruşdular. Kimliyindən asılı olmayaraq hamını bir məram düşündürürdü: "Düşməni darmadağın etmək", "Vətənin bütövlüyünü təmin etmək". Bu şüar altında bütün xalq birgə mübarizədə düşmənə sarsıdıcı zərbələr vurmaqla 30 il Müstəqil Azərbaycanımızın üçrəngli bayrağının yolunu gözləyən torpaqlarda "44 gün 23 saat" ərzində "Vətən Bayrağı"nı sancmaqla bir daha mübarizədə birliyin, qardaşlığın möhkəm olduğunu bütün dünyaya sübut etdilər.

Azərbaycana rəhbərlik etdiyi dövrlərdə (1969-1982-ci illərdə) Ümummilli lider bütün sahələrdə quruculuq işləri aparmış, ölkəmizin daha da öncül ölkələr sırasında olması üçün əlindən gələni etmişdir. Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real

siyasi amilə çevrilməsidir [5]. Ulu öndərimizin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır.

Ümumilli lider bütün sahələrə diqqət yetirdiyi kimi təhsilə də xüsusilə önəm verirdi. Cəmiyyətin inkişafını, yüksək intellektual səviyyəni, mədəni və dünyagörüşlü olmanın təməlini təhsildə görürdü. Onun da dediyi kimi: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz". Bu məqsədlə də Müstəqil Azərbaycanımıza rəhbərlik etdiyi bütün dövrlərdə gənclərin maariflənməsi, onların ali təhsil alaraq dünyanın bütün ölkələrində öz bilik və bacarıqlarının nümayiş etdirməsi üçün əlindən gələn bütün imkanlardan istifadə etmiş və bu istiqamətdə uyğun şəraitin yaradılması üçün tapşırıqlar vermişdir.

## Nəticə / *Conclusion*

Dahi şəxsiyyətin göstərişi ilə  dövlətçiliyimizin sosial-iqtisadi inkişafı üçün ictimai-siyasi sabitliyi bərqərar etməklə Müstəqil Azərbaycanımızın ərazi bütövlüyünü bərpa etmək və olkənin müstəqilliyini qoruyub saxlamaq istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Müstəqil dövlətimizin milli artibutlarına hörmətlə yanaşan Ümummilli liderimiz üçrəngli bayrağı "milli varlıq hadisəsi" adlandırmaqla kiçikdən-böyüyə hamının ürəyində şərəf tariximizin fəxrlə yaşamasını arzu edirdi. Onun  ifadə etdiyi kimi: "Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağı və bayrağa münasibət, bayrağın müqəddəsliyi hər bir çocukda, hər bir yeniyetmədə müqəddəs, daxili hissiyyat olmalıdır. Mən çox ölkələrə gedirəm, gəlib hava meydanında Azərbaycanın bayraqlarını görəndə həddindən artıq sevinirəm. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, bunu qiymətləndirsin və onda bayrağa olan məhəbbət, eyni zamanda vətənə, dövlətə olan məhəbbətə bərabər olsun". Unudulmaz Heydər Əliyevi daima düşündürən məsələ öz xalqı və xalqının Müstəqil dövlətini və dövlətçiliyini qurmaq, formalaşdırmaq və hərtərəfli inkişaf etdirməklə dünyanın aparıcı ölkələri sırasında Müqəddəs Bayrağımızı qürurla dalğalandırmaq idi. Bu məqsədlə də Ümummili rəhbər gərgin əmək, yüksək intellekt, dərin düşüncə, geniş dünyagörüş və mükəmməl siyasi savadı ilə həll edilməli olan məsələləri uğurla həll etdi və sonsuz qalibiyyət qazandı. Yaşasın, Müstəqil Azərbaycanımız!

*"Azərbaycanda bütün millətlərin və xalqların nümayəndələri vahid bir ailənin üzvləri kimi yaşayırlar. Milli azlıqların qorunması Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin ən əsas istiqamətlərindən biridir. Azərbaycanda yaşayan digər xalqların və millətlərin də azad və firavan yaşaması üçün hər cür şərait yaradılmışdır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir ".*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

## Ədəbiyyat / *References*


1. Bağırova, Ş. Heydər Əliyev və multikulturalizm siyasəti. "Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" adlı beynəlxalq konfransın materialları (8-9 sentyabr 2016). – Bakı, 2016.
2. Əliyev, İ.H. İkinci Humanitar Forumda çıxışı. Respublika" qəzeti, 23 may 2011-ci il. – Bakı, 2011.
3. Xəlilov, S. Lider. Dövlət. Cəmiyyət. Azərbaycan universiteti. – Bakı, 2001.
4. Vəliyev, İ. "Vicdan azadlığı və ana dilində danışmaq hüququnun konstitusion hüquqi təminatı". "Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" adlı beynəlxalq konfransın materialları ( 8-9 sentyabr 2016). – Bakı, 2016.
5. http://scfwca.gov.az/post/1546/heyder-eliyev-irsi-musteqil-dovletcilik-ve-muasirlik.

# Гейдар Алиев и национально-нравственные ценности

**Севиндж Агаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: sevinj.aliyeva.76@bk.ru

**Резюме.** Наш независимый Азербайджан – страна, которая всегда защищает и уважает свои национальные и моральные ценности. Наш общенациональный лидер Гейдар Алиев формировал государство и государственность, прилагая все усилия в направлении развития и защиты национально-нравственных ценностей. Наш общенациональный лидер Гейдар Алиев, любящий азербайджанский народ, всегда подчеркивал, что нация без национальных и моральных ценностей не является настоящей нацией, и что эти ценности формируются в жизни, деятельности азербайджанского народа. Реставрация наших памятников, их реконструкция и другие подобные работы стали успешным результатом внимания и заботы Гейдара Алиева.
**Ключевые слова:** Общенациональный лидер, Гейдар Алиев, национальный, ценность, народ